**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ İLƏ TÜRKİYƏ RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI VƏ MEŞƏÇİLİK NAZİRLİYİ ARASINDA HEYVAN XƏSTƏLİKLƏRİ İLƏ MÜBARİZƏ ÜZRƏ ƏMƏKDAŞLIQ HAQQINDA**

# NİYYƏT BƏYANNAMƏSİ

Bu Niyyət Bəyannaməsi Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq) arasında heyvan xəstəlikləri ilə mübarizə üzrə əməkdaşlığı inkişaf etdirmək üçün, Tərəflərin gələcək fəaliyyətləri ilə bağlı prosedur və prinsipləri müəyyənləşdirmək məqsədilə hazırlanmışdır.

Bu istiqamətdə Tərəflər aşağıdakı məsələlər üzrə niyyətlərini bəyan etdilər:

1) Tərəflər Türkiyədə heyvan xəstəlikləri ilə mübarizə üzrə tədqiqatların Azərbaycan Respublikasında həyata keçirilməsi imkanlarının tədqiqi və təcrübə mübadiləsi sahəsində əməkdaşlıq etmək niyyətlərini ifadə etdilər.

2) Ölkədə yaranan və ya yarana biləcək epizootik vəziyyət barədə məlumat mübadiləsi, epizootiya əleyhinə tədbirlərin planlaşdırılması və icrasına nəzarət, epizootoloji monitorinqlərin təşkili və həyata keçirilməsi üzrə əməkdaşlıq etmək barədə ortaq fikirlərini bəyan etdilər.

3) Heyvan xəstəlikləri ilə mübarizə mövzusunda təlimlərin və sahə simulyasiya məşqlərinin birgə təşkili, təbiətdə heyvanların sağlamlıq vəziyyətinin qiymətləndirilməsi üzrə tədqiqatların və mübarizə tədbirlərinin həyata keçirilməsi üçün heyvan xəstəlikləri üzrə diaqnostika protokollarının qarşılıqlı tanınması istiqamətində əməkdaşlıq etmək barədə fikirlərini bəyan etdilər.

4) Ölkə ərazisində heyvan xəstəliklərinin qarşısının alınması məqsədilə diri heyvanların və heyvan mənşəli məhsulların idxal-ixracı və ya ölkə ərazisindən keçməklə tranzit daşınmasının yerinə yetirilməsi zamanı sərhəd-nəzarət məntəqələrində nəzarətin həyata keçirilməsi üzrə əməkdaşlıq və təcrübə mübadiləsinin aparılması barədə niyyətlərini bildirdilər.

5) Azərbaycan Respublikasında heyvan xəstəliklərinə nəzarətin təmin olunması məqsədilə beynəlxalq standartlara uyğun olaraq, heyvan xəstəliklərindən azad zonaların, heyvanların identifikasiyası və qeydiyyatı sisteminin inkişaf etdirilməsi istiqamətində təcrübə mübadiləsinin həyata keçirilməsi və mütəxəssis hazırlığı istiqamətində əməkdaşlıq etmək barədə ortaq fikirlərini bəyan etdilər.

6) Tərəflər bu Niyyət Bəyannaməsində qeyd olunan fəaliyyətlərin səmərəli icrasını təmin etmək məqsədilə, Birgə İşçi Qrupunun yaradılması və bu Niyyət Bəyannaməsinin Əlavəsinə daxil ediləcək Fəaliyyət Planının hazırlanması ilə bağlı razılığa gəldiklərini bəyan etdilər.

Bu Niyyət Bəyannaməsi 8 may 2024-cü il tarixində, Ankara şəhərində, Azərbaycan və Türk dillərində, hər iki mətn bərabər autentik olaraq, iki əsl nüsxədə imzalanmışdır.

| AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ | TÜRKİYƏ RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI VƏ MEŞƏÇİLİK NAZİRLİYİ |
|---|---|
| ADINDAN | ADINDAN |

**AZERBAYCAN CUMHURİYETİ GIDA GÜVENLİĞİ AJANSI İLE TÜRKİYE CUMHURİYETİ TARIM VE ORMAN BAKANLIĞI ARASINDA HAYVAN HASTALIKLARIYLA MÜCADELEDE İŞBİRLİĞİ HAKKINDA**

**NİYET BEYANI**

İşbu Niyet Beyanı, Azerbaycan Cumhuriyeti Gıda Güvenliği Ajansı ile Türkiye Cumhuriyeti Tarım ve Orman Bakanlığı (bundan böyle "Taraflar" olarak anılacaktır.) arasında hayvan hastalıklarıyla mücadelede işbirliğinin geliştirilmesi ve Tarafların gelecekteki faaliyetlerine ilişkin usul ve esasları belirlemek amacıyla hazırlanmıştır.

Bu doğrultuda, Taraflar aşağıdaki hususlara ilişkin niyetlerini beyan etmişlerdir:

1) Taraflar, Türkiye'de hayvan hastalıklarıyla mücadele konusunda yapılan çalışmaların Azerbaycan Cumhuriyeti'nde uygulanma imkanlarının araştırılması ve deneyimlerin paylaşılması konusunda işbirliği yapma niyetlerini ifade etmişlerdir.

2) Ülkede tespit edilen veya oluşabilecek epizootik durumlar hakkında bilgi alışverişinde bulunmak, epizootik hastalıklara karşı önlemlerin planlanması ve uygulanmasının kontrolü, epizootik izlemenin organizasyonu ve uygulanması hususunda işbirliği yapılması konusunda ortak fikir beyan etmişlerdir.

3) Hayvan hastalıklarıyla mücadele konusunda ortak eğitim ve saha simülasyon tatbikatları düzenlenmesi, hayvanların doğadaki sağlık durumlarının değerlendirilmesine ilişkin araştırmalar ve kontrol tedbirlerinin uygulanması için hayvan hastalıkları teşhis protokollerinin karşılıklı tanınması yönünde işbirliği yapılması konusunda fikirlerini beyan etmişlerdir.

4) Ülkede hayvan hastalıklarının önlenmesi amacıyla canlı hayvan ve hayvansal ürünlerin ithalat-ihracatı veya ülke içinden transit taşımacılığı sırasında sınır kontrol noktalarında kontrolün oluşturulmasında işbirliği ve deneyim alışverişinde bulunulması konusunda niyetlerini belirtmişlerdir.

5) Azerbaycan Cumhuriyeti'nde hayvan hastalıklarının uluslararası standartlara uygun olarak kontrolünü sağlamak amacıyla, hayvan hastalıklarından ari bölgelerin, hayvan kimlik ve kayıt sisteminin geliştirilmesi yönünde, uzmanların eğitimi ve deneyim alışverişi yapılması konusunda ortak fikir beyan etmişlerdir.

6) Taraflar, işbu Niyet Beyanı'nda belirtilen faaliyetlerin etkin bir şekilde uygulanmasını sağlamak amacıyla, Ortak Çalışma Grubu oluşturulması ve işbu Niyet Beyanı Ek'inde yer alacak Eylem Planının oluşturulması konusunda mutabakata vardıklarını beyan etmişlerdir.

İşbu Niyet Beyanı, 8 Mayıs 2024 tarihinde, Ankara'da, iki asıl nüsha halinde, Azerbaycan ve Türkçe dillerinde tüm metinler eşit derecede geçerli olacak şekilde imzalanmıştır.

| | |
|---|---|
| **AZERBAYCAN CUMHURİYETİ GIDA GÜVENLİĞİ AJANSI** | **TÜRKİYE CUMHURİYETİ TARIM VE ORMAN BAKANLIĞI** |
| **ADINA** | **ADINA** |